# Azərbaycan Dünya İqtisadi Forumunun təşəbbüslərində fəal iştirak edir

***Azərbaycanla Dünya İqtisadi Forumu arasında əlaqələr getdikcə möhkəmlənir. Dövlətimizin bu təşkilatla sıx əməkdaşlığı ölkəmizin iqtisadiyyatının dayanıqlı inkişafı üçün zəmin yaradan amillərdən biridir. Xatırladaq ki, Azərbaycan 1995-ci ildən Dünya İqtisadi Forumunun daimi iştirakçısıdır.***




Forumun 1995-ci ilin hesabat müzakirəsi üçün təşkil olunan tədbirində Azərbaycana həsr olunan məxsusi görüşdə ümummilli liderimiz respublikamızın zəngin neft-qaz resursları və ölkəmizdə xarici investisiya üçün potensial şəraitin mövcudluğu barədə dünya ictimaiyyətinə məlumat vermişdi. Müstəqilliyimizin ilk illərində, müharibədən yenicə çıxan və iqtisadiyyatı ağır vəziyyətdə olan respublikamız üçün xarici investisiyaların cəlbi zəruri və prioritet məsələlərdən idi. Bütün bunları nəzərə alaraq ulu öndər xarici səfərlər zamanı iştirak etdiyi beynəlxalq forum və konfranslarda Azərbaycanda zəngin neft-qaz yataqlarını və bunların hasilatı, eyni zamanda, emalı üçün Azərbaycanda hər cür şəraitin olmasını dünya ictimaiyyətinin nəzərinə çatdırmışdı.

Dünya İqtisadi Forumunun 2000-ci il görüşünə Azərbaycan artıq dünya miqyasında nüfuz qazanan, "Əsrin müqaviləsinin" icra olunmasında yol qət edən bir dövlət kimi qatılmışdı. Forum zamanı müzakirə olunan məsələlər (İpək yolu, Qafqazın perspektivləri) və bu zaman Azərbaycanın mövqeyinin nəzərə alınması deməyə əsas verirdi ki, Azərbaycan nəinki regionda, həmçinin dünyada artıq sözü keçən, verdiyi vədə əməl edən dövlət hesab olunur. Forumun illik tədbirlərinin birində, 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra beynəlxalq terrorçuluqda nəzarətsiz qalan torpaqların rolunun müzakirəsi Azərbaycan üçün əhəmiyyətli oldu. Bu müzakirədən sonra dünya ictimaiyyətinin diqqəti bir daha Azərbaycanın probleminə yönəldildi.

Əvvəllər sözügedən foruma qatılmaqla əsasən investor cəlb etmək üçün işlər görən, görüşlər keçirən, iqtisadi mühitin münbitliyini diqqətə çatdıran Azərbaycan sonradan Prezident İlham Əliyevin səyi ilə artıq ölkəmizin investisiya imkanlarını bütün dünyaya göstərdi.

Dünya İqtisadi Forumunun Azərbaycan və digər inkişaf etməkdə olan dövlətlər üçün belə əlverişli platforma yaratması mühüm əhəmiyyətə malikdir. Məhz belə bir platformada öz dövlət siyasətini təbliğ edərək, dünya dövlətləri üçün dəyərini, Avropanın enerji təminatında əhəmiyyətini artıran Azərbaycan sürətli inkişafı ilə regionda liderə çevrilməyə nail olub. Dünya İqtisadi Forumu kimi tədbirlərin imkanlarından faydalanan respublikamız dəfələrlə dünya dövlətlərinə əsaslandıra bilib ki, yalnız Azərbaycanın maraqlarına uyğun olan layihələr birmənalı şəkildə reallaşdırılacaq.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycan Dünya İqtisadi Forumunun təşəbbüslərində fəal iştirak edir



*(əvvəli 1-ci səhifədə)*

Aprelin 28-də dünya İqtisadi Forumunun (DİF) prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevin forumun prezidenti Borge Brende ilə videokonfrans formatında keçirilən görüşündə də ölkəmizlə DİF arasında uzunmüddətli səmərəli əməkdaşlıq haqqında ətraflı danışılıb, həmçinin mövcud münasibətlər əsasında Azərbaycanın bu təşkilatın bir sıra təşəbbüslərində fəal iştirak etdiyi qeyd olunub. Görüşdə tərəflərin qeyri-neft sektorunun inkişafı sahəsində uğurlu əməkdaşlığı da vurğulanıb.

Dövlətimizin başçısı Borge Brendeyə işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verib. Prezident İlham Əliyev düşməndən təmizlənən torpaqlarda yenidənqurma prosesi getdiyini, bu istiqamətdə qarşıda mühüm vəzifələr durduğunu diqqətə çatdıraraq, böyük bir ərazinin tamamilə yenidən qurulacağını bildirib. Ölkə rəhbəri hazırda bütün səylərin ərazilərin yenidən qurulmasına yönəldiyini qeyd edərək, qarşıdakı dövrdə iqtisadiyyatın qeyri-enerji sektorunun, xüsusilə tikinti sahəsinin daha da canlanacağını deyib. İki gün əvvəl "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlətimizin başçısı işğaldan azad edilən əraziləri "yaşıl zona" elan etdiyini, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, enerji təchizatı, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini də diqqətə çatdırıb və bu sahədə DİF ilə əməkdaşlığın perspektivlərinə toxunub.

Söhbət zamanı Azərbaycanda pandemiya ilə mübarizə sahəsində görülən tədbirlərdən də bəhs edilib, eyni zamanda, son günlərdə ölkədə sağalanların sayının artması müsbət amil kimi qiymətləndirilib. Azərbaycanda vaksinasiyaya başlanıldığı, əhalimizin 14 faizinin artıq peyvənd olunduğu xatırladılıb, pandemiyayla bağlı ölkəmizin təşəbbüsü ilə çox vacib və qlobal tədbirlərin keçirildiyi vurğulanıb, Azərbaycanın 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərdiyi, respublikamızın milli səviyyədə və Qoşulmama Hərəkatının sədri kimi qaldırdığı məsələlərdən birinin də dünyada vaksinlərin ədalətli bölgüsü ilə bağlı olduğu diqqətə çatdırılıb.

Görüşdə MDB regionunda ilk dəfə Azərbaycanda yaradılan Dördüncü Sənaye İnqilabı Mərkəzi haqqında da danışılıb. Yeri gəlmişkən, çox məhdud sayda ölkələrdə qurulan belə mərkəzlərin qarşısında dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsi məqsədi durur.

Dövlətimizin başçısı niyyət protokolunun imzalanmasını Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əlaqələrin yeni səhifəsi üçün yaxşı başlanğıc adlandırıb. Protokolun əhəmiyyətini vurğulayan Borge Brende isə deyib: "Biz, həmçinin bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq".

Burada onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında imzalanan əməkdaşlıq razılaşması dünyada baş verən müsbət trendlərin və qabaqcıl təcrübənin respublikamızın sosial-iqtisadi həyatına transformasiyasına əlverişli imkan yaradıb.

Görüşdə DİF-in Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinin afilə edilmiş Azərbaycan Mərkəzinin fəaliyyəti ilə bağlı da danışılıb. Dövlətimizin başçısı MDB regionunda ilk bu cür mərkəzin məhz Bakıda yaradılmasına görə minnətdarlığını bildirib, iqtisadiyyatı şaxələndirmək və islahatları davam etdirmək üçün, eləcə də investisiyaları cəlb etmək baxımından mərkəzin mühüm rolunu qeyd edib.

Yeri gəlmişkən, bu mərkəzin əsası 2020-ci ildə Davosda Azərbaycan Prezidenti İlham Əliyev və DİF-in prezidenti Borge Brendenin niyyət məktubunu imzalaması ilə qoyulub. Mərkəzin fəaliyyətinin təşkili üçün DİF ilə sıx əməkdaşlıq artıq təmin olunub. İlkin mərhələdə süni intellekt və rəqəmsal iqtisadiyyatla bağlı təhlillərin aparılmasına başlanılıb.

Bəs Azərbaycanda dördüncü sənaye inqilabının çağırışları özünü necə büruzə verir? Xatırladaq ki, hələ 2019-cu ilin sonlarında Çindən sürətlə yayılan və ölümlə nəticələnən yeni virus infeksiyası pandemiyaya çevrildiyi ilk vaxtlardan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu dəhşətli bəlaya qarşı strateji xarakter daşıyan mübarizə şəraitində sosial-iqtisadi layihələrin də icrası davam etdirildi. Eyni zamanda, 2020-ci ilin ötən aylarında da "Sənaye 4.0"ün çağırışları diqqət mərkəzində saxlanıldı.




Ümumiyyətlə, dövlətimizin başçısı tərəfindən "Sənaye 4.0"ün meydana çıxdığı ilk vaxtlardan etibarən bu məsələ diqqətdə saxlanılıb və buna uyğun siyasət yürüdülüb. Ən əsası isə respublikamızda bu sənaye inqilabının çağırışları ilə ayaqlaşa bilmək üçün inteqrativ və dayanıqlı inkişaf mühiti yaradılıb, rəqəmsal təşəbbüslər dəstəklənib.

Azərbaycan dünyada ikinci dəfə rəqəmsal ticarət qovşağını yaradan ölkədir. Respublikamızda həm dövlət, həm də özəl sektor hazırda İpək yolunun rəqəmsallaşması istiqamətində fəaliyyət göstərir. Çindən başlamış Avropaya qədər müxtəlif ölkələrdə bu istiqamətdə Azərbaycanla əməkdaşlıq davam edir. Azərbaycanda Elektron Hökumət portalı tam funksionaldır və elektron hökumət çərçivəsində elektron kənd təsərrüfatı, elektron kadastr, elektron həllər mövcuddur.

Prezident İlham Əliyev görüşdə Borge Brendeni Azərbaycana səfərə və mərkəzin fəaliyyəti ilə tanış olmağa dəvət edib.

Azərbaycanda hazırda gənc nəslin təhsilinə çox böyük diqqət və qayğı göstərildiyini, son illərdə bilikli insanların yeni nəslinin yetişdiyini deyən dövlətimizin başçısı azərbaycanlı gənclərin təcrübəçi kimi DİF-in təşəbbüs və proqramlarında iştirakına imkan yaradıldığına görə Borge Brendeyə təşəkkürünü bildirib.

Qeyd edək ki, son illərdə Azərbaycanda hökumətin yeniləşdirilməsi, gənc texnokratlara böyük etimad göstərilməsi diqqət mərkəzində saxlanılır, bu istiqamətdə önəmli islahatlar reallaşdırılır, hökumətə yüksək təhsil alan, müasir baxışlı yeni şəxslər dəvət olunur.

Ölkə rəhbərinin – "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisi gənclərə etimad və münasibətin bariz ifadəsidir. Bu, Prezident İlham Əliyevin yeritdiyi kadr siyasətində də aydın nəzərə çarpır.

Ümumiyyətlə, dövlətimizin başçısı bu gün gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunmasını, onların məşğulluğunun təmin edilməsini, dövlət idarəçilik sistemində iştirakı istiqamətində kompleks tədbirlər həyata keçirilməsini əsas vəzifələr kimi qarşıya qoyub.

Son illər ərzində gənclərin ölkənin mədəni, ictimai-siyasi, iqtisadi həyatında fəallığının artması mövcud konsepsiyanın uğurlu icrasının göstəricisidir. Bunu gənclərin artıq müşahidəçi qismindən birbaşa siyasi-ictimai proseslərin iştirakçısına çevrilməsi faktı da sübut edir. Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycanda uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına olduqca müsbət təsir göstərir.

Borge Brende söhbət zamanı azərbaycanlı gənclərin mükəmməl təhsilə yiyələndiklərini də vurğulayıb və onların Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi işinə töhfə verəcəklərinə əminliyini ifadə edib.

Dünya İqtisadi Forumunun prezidenti görüşdə investisiyaların cəlb edilməsi üçün ölkəmizdə əlverişli mühitin mövcudluğunu da bildirib.

Yeri gəlmişkən, 2020-ci ildə Azərbaycana birbaşa investisiyalar formasında xaricdən cəlb olunan sərmayələrin ümumi məbləğinin 4,5 milyard dollar (5,9 faiz artım) olması, ölkə iqtisadiyyatına yatırılan birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisinin 86,6 faiz təşkil etməsi respublikamızda investisiya mühitinin yaxşılaşdırılmasına xüsusi diqqətin bariz ifadəsidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***